

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 28-29 (7490-7491) ✵ 1933-cü ildən nəşr olunur ✵ Çərşənbə, 13 iyun 2018-ci il. ✵ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***11 iyun***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Raket Qoşunlarının "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.

***10 iyun***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovun, Peru Respublikasının fövqəladə və səlahiyyətli səfiri Mariya Milaqros Kastanyon Seoanenin, Bolqarıstan Respublikasının fövqəladə və səlahiyyətli səfiri Nikolay Yankovun etimadnamələrini qəbul edib.

***8 iyun***

Prezident İlham Əliyev Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvü Yan Zahradili qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qambiya Respublikasının xarici işlər naziri Ousainu Darboeni qəbul edib.

***7 iyun***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin "Sahil" stansiyasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak edib.

***6 iyun***

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyeni qəbul edib.

Söhbət zamanı Azərbaycanda idmanın sürətli inkişafı, ölkəmizdə müxtəlif idman növləri üzrə ən müasir infrastrukturun yaradıldığı məmnunluqla qeyd olunub, Azərbaycanda keçirilən mühüm idman tədbirlərinin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi vurğulanıb.

***5 iyun***

Prezident İlham Əliyev Naftalan şəhərinə səfəri çərçivəsində, Naftalan Şəhər Mərkəzi Xəstəxanasının açılışında iştirak edib.

## İlham ƏLİYEV:

***«Mən şübhə etmirəm ki, Azərbaycan bundan sonrakı dövrdə də uğurla inkişaf edəcək. Bizim bütün planlarımız həyata keçirilir. Verdiyimiz bütün vədlər yerinə yetirilir».***



# İqtisadi inkişafın Azərbaycan modeli

***Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. Bu müddət ərzində ölkəmizin iqtisadiyyatının həcmi dəfələrlə artıb. Aparıcı beynəlxalq təşkilatlar, Davos İqtisadi Forumu Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görüb. İnkişaf edən ölkələr arasında isə Azərbaycan 3-cü yerdədir. Ölkəmizin çox böyük iqtisadi resursları var. Hazırda Azərbaycanın valyuta ehtiyatları xarici borcundan 5 dəfə böyükdür.***

İqtisadi inkişaf sahəsində görülən tədbirlər nəticəsində Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) artım tempi cari il ərzində yenidən yüksək rəqəmlərlə ifadə olunur. Bunun əsas səbəbi, ilk növbədə, qeyri-neft sektorunun dinamik inkişafı ilə bağlıdır. Turizm, nəqliyyat, kənd təsərrüfatı və digər istiqamətlər üzrə qeyri-neft sektoru Azərbaycana böyük həcmdə gəlirlər gətirir. Bu da ÜDM-nin yüksəlişinə təsirsiz ötüşmür.

Digər tərəfdən, Azərbaycan dünəndən etibarən daha bir vacib layihəni işə salmışdır. Bu layihənin işə düşməsi həm ölkəmizə külli miqdarda valyuta axınını təmin edəcək, həm də iqtisadi yüksəlişi daha çevik hala gətirəcək. Söhbət məhşur TANAP layihəsindən gedir. Bütün bunların nəticəsidir ki, nüfuzlu beynəlxalq maliyyə qurumları bu il Azərbaycanda iqtisadi göstəricilərin kifayət qədər yüksək olacağını qeyd edirlər. Məsələn, Dünya Bankı 2018-ci ildə Azərbaycanda ümumi daxili məhsulun 1,8 faiz artacağını proqnozlaşdırır. Bu ilin yanvarında isə qurum Azərbaycanda 0,9 faiz iqtisadi artım gözləyirdi. Bundan əvvəl Beynəlxalq Valyuta Fondu (BVF) 2018-ci il üçün Azərbaycan iqtisadiyyatının artımı ilə bağlı proqnozu 1,3 faizdən 2 faizədək yüksəldib. Beynəlxalq Valyuta Fondundan, Dünya Bankından sonra Avropa Yenidənqurma və İnkişaf Bankı da 2018-ci ildə Azərbaycan iqtisadiyyatının artımı üzrə proqnozu daha da yaxşılaşdırıb. Belə ki, qurum cari ildə Azərbaycanda ÜDM-nin artımı üzrə proqnozlarını 2 faizdən 2,5 faizədək artırıb.

Yuxarıda qeyd olunduğu kimi, bütün bunlara səbəb qeyri-neft sektorunun dinamik inkişafı, eyni zamanda, Azərbaycanı Türkiyənin enerji bazarında çox vacib tərəfdaşa çevirəcək TANAP layihəsinin istifadəyə verilməsidir. Azərbaycan təbii qazını Türkiyəyə və oradan da Avropaya nəql edəcək TANAP qaz boru kəməri iyunun 12-də istismara verilmişdir. Hazırda TANAP-ın 1350 kilometr uzunluğundakı hissəsinin inşası tamamlanıb. Boru kəmərinə sınaq məqsədilə qaz vurularaq Əskişəhərə çatdırılıb. Artıq sistemə təbii qazın alınmasına da başlanıb. İlkin mərhələdə TANAP-la Türkiyəyə ildə 2 milyard kubmetr qaz veriləcək. Sonrakı 3 il ərzində bu həcm 6 milyard kubmetrə çatdırılacaq. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir. Sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması imkanı var.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və Avropaya nəql edəcək TANAP "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsidir. "Cənub Qaz Dəhlizi"nin təşəbbüskarı və hərəkətverici qüvvəsi də Azərbaycandır. Avropanın ən iri infrastruktur layihəsi olan "Cənub Qaz Dəhlizi" geniş bir coğrafiyanı əhatə edir. Qitənin enerji xəritəsində mühüm dəyişikliklər etməyə, enerji təhlükəsizliyinin daha da şaxələndirilməsinə hesablanıb. Bütün işlər ilkin qrafikə uyğun şəkildə, yüksək dəqiqlik və tikinti keyfiyyəti nəzərə alınaraq davam etdirilir. Hazırda İran, Türkmənistan, perspektivdə isə hətta İraqın da "Cənub Qaz Dəhlizi" vasitəsilə öz enerji resurslarını Qərb istiqamətinə çıxarması gözlənir. Bu isə Azərbaycan üçün yeni gəlir mənbələri deməkdir. Təbii ki, belə vəziyyət də ölkədə ümumi daxili məhsulun artım tempini xeyli yüksəldəcək.